

***Mədəniyyət tariximizdə məxsusi yeri olan Rüstəm Mustafayev yaradıcı ömrünü rəssamlıq sənətinə həsr etmişdi. Bu məşhur rəssamın adı oxucularımıza yəqin ki, tanışdır. Ən azı ona görə ki, paytaxtımızdakı Milli İncəsənət Muzeyi 1943-cü ildən onun adını daşıyır.***

# Yarımçıq ömrün sənət uğurları

O, 1910-cu ilin fevral ayında Bakıda dünyaya göz açıb. 1921-1926-cı illərdə Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil alıb. Bir müddət Moskvanın yaradıcı mühitində müəyyən təcrübə keçdikdən sonra Vətənə qayıdıb, Bakı Azad Tənqid-Təbliğ, Azərbaycan Dövlət Akademik Dram və başqa teatrlarda quruluşçu rəssam işləyib. O, sadəcə, tamaşalara dekor hazırlamaqla, bədii tərtibat verməklə kifayətlənmir, səhnələrin qurulmasında fəal iştirak edərək rejissor və müəlliflərə yaxından kömək göstərirdi. Rüstəm Mustafayev Azərbaycanın mədəniyyət tarixinə realist teatr-dekorasiya sənətinin yaradıcılarından biri kimi daxil olub.

Bu istedadlı sənətkar hələ 30-cu illərdə səhnəyə qoyulan “1905-ci ildə”, “Od gəlini” (C. Cabbarlı), “Ölülər” (C. Məmmədquluzadə), “Şeyx Sənan” (H. Cavid) kimi əsərlərə yüksək sənətkarlıqla bədii tərtibat vermişdir.

Yardıcılığının ilk illərində qazandığı uğurların nəticəsi idi ki, onu Opera və Balet Teatrında işləməyə dəvət ediblər. “Arşın mal alan”, “Leyli və Məcnun”, “Koroğlu" (Üzeyir Hacıbəyli ), “Aşıq Qərib” (Zülfüqar Hacıbəyov), “Şah İsmayıl” (Müslüm Maqomayev), “Sonalar gölü” (Pyotr Çaykovski) tamaşalarının dekorasiya və geyimlərində Rüstəm Mustafayevə məxsus əhatəlilik və rəngarənglik öz əksini tapmışdır. Onun bu teatrdakı işini böyük bəstəkar Üzeyir Hacıbəyli yüksək qiymətləndirirdi. Rüstəm Mustafayevin Üzeyir bəyin “Koroğlu” operasının ilk tamaşasına (1937) verdiyi bədii tərtibatı sənət baxımından olduqca dəyərli idi.

Otuzuncu illərdə Moskvada müxtəlif sərgilər keçirilirdi. Bu sərgilərdə Azərbaycana məxsus bölümün tərtibatçısı da məhz Rüstəm Mustafayev olurdu.

Rüstəm Mustafayevlə yaxından dostluq etmiş həmkarı Qəzənfər Xalıqov xatirələrində yazırdı: “Rüstəmin yaradıcılığı müasirlərindən bir də onunla fərqlənirdi ki, o, teatr tərtibi sənətinin nailiyyətlərini milli ənənələrimizlə zənginləşdirməyə qabil sənətkar idi”.

Rüstəm Mustafayevin yaradıcılığı çoxşaxəli olub. O, eyni zamanda. miniatür sənətimizi, milli memarlığımızı öyrənərək müxtəlif sərgilərin tərtibatı ilə məşğul olur, elmi tədqiqatlar aparır, qrafika, plakat rəssamlığı sahəsində də uğurlar qazanırdı. Milli ornamentlərimizin dərin bilicisi və yaradıcılığında da bundan bacarıqla istifadə edən istedadlı sənətkar idi.

Rüstəm Mustafayev həm də istedadlı kitab qrafikaçısı olmuşdur. Neçə-neçə plakat və kitabların bədii tərtibatı üzərində işləmişdir. Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza və başqa şairlərin o dövrdə çıxan kitablarının bədii tərtibatı rəssamın ilk qrafika işlərindən sayılırdı. 1939-cu ildə çap edilmiş Azərbaycan aşıqlarının şeirlərindən ibarət "Aşığın səsi" kitabının da bədii tərtibatı Rüstəm Mustafayevə məxsusdur.

Onun son işlərindən biri də 1940-cı ildə Nizami muzeyinin qurulması ilə bağlı idi. O, bu muzeyin bədii tərtibatının müəlliflərindən biri olmuşdur. R.Mustafayev 1937-ci ildən 1940-cı ilə kimi, yəni ömrünün sonuna qədər Azərbaycan abidələrinin mühafizəsi ilə məşğul olan Mərkəzi Dövlət İdarəsinin direktoru vəzifəsində çalışmışdır. Onun Nizami dövrü abidələrinin və Şəki Xan sarayının elmi bərpası sahəsində mühüm xidmətləri olmuşdur.

Yəqin ki, ömrü yarıda qırılmasaydı, Rüstəm Mustafayev haqqında bu gün daha geniş danışmaq olardı. Amma o, çox az yaşadı, daha möhtəşəm əsərlərini yarada bilmədi. Cəmi 30 il ömür sürmüş bu istedadlı rəssamın yaradıcılığını araşdırarkən heyrətə gəlirsən. Tanrı ona necə də qeyri-adi istedad və qabiliyyət veribmiş.

Öz orijinal düşüncə tərzi ilə Azərbaycan səhnəsinə yeniliklər gətirmişdir. O dövrdə Rüstəm Mustafayevi nəinki Rusiyada, hətta İttifaq respublikalarında yaxşı tanıyırdılar. Bu istedadlı rəssamı haralara dəvət etmirdilər? Amma o, bütün qəlbi və varlığı ilə doğma Bakıya bağlı idi. Elə bu şəhərdə də haqq dünyasına qovuşdu.

1937-ci ilin repressiya sarsıntılarını içindən keçirmiş həssas duyğulu rəssam yaradıcılıq nailiyyətlərinə görə müxtəlif mükafatlara, fəxri fərmanlara, eləcə də “Şərəf nişanı” ordeninə layiq görülmüşdü.

Rüstəm Mustafayev 1940-cı il iyulun 19-da otuz yaşında Bakıda vəfat etmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

***M.MÜKƏRRƏMOĞLU,***

Xalq qəzeti 2020.- 1 mart.- S.7.